# BALAKƏN: İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ

**(əvvəli ötən sayımızda)**

**Yığıncaqda qeyd olunduğu kimi, ötən müddət ərzində əhalinin elektrik enerjisi, içməli su, təbii qaz, nəqliyyat, rabitə və digər xidmətlərlə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmış, xidmət təşkilatları tərəfindən hər bir vətəndaş müraciətinə həssaslıqla yanaşılmışdır.**

Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması məqsədilə 6/10/0.4 kv-luq 6 ədəd yeni transformator istismara verilmiş, 22 transformator cari, 12 transformator əsaslı təmir edilmiş, Meşəşambul və Püştətala kəndlərində 2 yeni güc mərkəzi yaradılaraq əhalinin istifadəsinə verilmişdir. Yüksək və aşağı gərginlikli elektrik verilişi xətləri üzrə 354 ədəd yeni dayaq basdırılmaqla 5,2 km məsafədə təmir işləri aparılmış, 37.7 km məsafədə yeni naqil çəkilmişdir.

Əhalinin içməli su, təsərrüfatların suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Katex, Tülü, Qazma, Şərif, Sarıbulaq, Xalatala, Meşəşambul, Qaysa və İtitala kəndlərində yeni artezian quyuları qazılaraq əhalinin istifadəsinə verilmişdir.

***Ötən dövrdə magistral və şəhərdaxili içməli su xətlərində təmir işləri aparılmış, orta təzyiqli qaz xətlərinə və qaz avadanlıqlarına texniki xidmət göstərilmişdir.***

***133 yeni abonentə təbii qaz verilərək əhali abonentlərinin ümumi sayı 21202-yə çatdırılmış, əhaliyə verilmiş elektrik enerjisinin, içməli suyun və qazın dəyəri 100,0 faiz ödənilmişdir.***

### *Əhaliyə rabitə xidmətlərinin göstərilməsi*

sahəsində rayon üzrə 114 nəfərə telefon çəkilməklə telefon istifadəçilərin sayı 7822 nəfərə çatdırılmış, 610 nəfər internet xidmətinə qoşulmuş, qəzalı vəziyyətdə olan 2250 metr kabel təmir edilmiş, 1400 metr kabel yenisi ilə əvəz edilmişdir.

1 yanvar 2020-ci il tarixə rayon üzrə pensiyaçıların sayı 11487 nəfər, sosial müavinət və təqaüd alan vətəndaşların sayı 6459 nəfər olmuşdur. Ötən dövr ərzində 867 nəfərə birdəfəlik müavinət verilmiş, ünvanlı dövlət sosial yardımı təyin edilən 62 ailəyə ödəniş davam etdirilmişdir.

İşsiz və işaxtaran vətəndaşların daimi və müvəqqəti məşğulluğunun təmin olunması istiqamətində işlər davam etdirilmişdir. 2019-cu ildə Məşğulluq mərkəzinə 2447 nəfər işaxtaran vətəndaş müraciət etmiş, 535 nəfərə işə göndəriş verilmiş, işlə təmin olunanlar əsasən abadlıq, təmizlik və yaşıllaşdırma işlərinə cəlb edilmişlər. Məşğulluq Mərkəzində qeydiyyatda olan vətəndaşlardan 449 nəfəri "DOST İŞ" MMC vasitəsilə ictimai işlərə cəlb edilmişdir. "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar 210 ailənin maddi-məişət şəraitinə baxış keçirilmiş, 199 nəfər təlimə cəlb olunmuş, onlardan 111 nəfəri aktivlərlə təmin edilmişdir.

### *Təhsil*



**Hesabat dövrünün tədris ilinin sonunda məktəblərdə biliyi qiymətləndirilən şagirdlərin 99,8 faizi müvəffəq qiymət almışdır. Təhsil müəssisələrində müxtəlif növ tədbirlərin, yarış və müsabiqələrin keçirilməsi diqqət mərkəzində saxlanılmış, həmin tədbirlərin nəticələri tədrisin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir.**

2019-cu ilin məzunlarının ali məktəblərə qəbul imtahanlarında göstərdiyi nəticələr yüksək olmuş, qəbul imtahanlarında iştirak edən 420 nəfər məzundan 282 nəfəri tələbə adını qazanmışdır. Ali məktəbə qəbul olan məzunlardan 6 nəfər 600 baldan çox, 33 nəfər isə 500-dən 600-ə qədər bal toplamışdır. Qeyd edilməlidir ki, 600-baldan yuxarı bal toplayan məzunlardan 3-ü, 500-dən yuxarı bal toplayanlardan 2 nəfəri Qaravəli kənd tam orta məktəbin məzunlarıdır. 2019-cu ildə ali məktəblərə qəbul olunanlar bütün məzunların 43 faizini, sənəd verənlərin 67 faizini təşkil etmişdir.

Fənn olimpiadalarının rayon turunda 405 nəfər, Şəki şəhərində keçirilən yarımfinalda isə 92 nəfər iştirak etmişdir. Yarımfinalın qaliblərindən 3 nəfər respublika turunda iştirak etmək hüququ əldə etmiş, bir nəfər şagirdimiz- Məmmədov Müslüm Qasım oğlu respublika turunda da müvəffəqiyyətlə çıxış edərək I yerə çıxmış və qızıl medal qazanmışdır.

Olimpiadada rayon məktəblilərinin tarix, riyaziyyat, coğrafiya, azərbaycan dili, biologiya fənlərindən nəticələri yüksək olmuşdur.

***Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adı altında keçirilən maarifləndirici tur-aksiya çərçivəsində mart və noyabr aylarında rayon ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin 80 nəfəri Gəncə-Qazax və Lənkəran-Astara bölgəsinin rayonlarına səyahət etmişdir.***



### *Səhiyyə*

2019-cu ildə Rayon Mərkəzi Xəstəxanasında stasionar xəstələrin sayı 4075 nəfər olmuş, 824 cərrahi əməliyyat aparılmışdır. Ötən dövr ərzində əhaliyə tibbi xidmətlərin göstərilməsi sahəsində rayon əhalisinin kütləvi tibbi müayinədən keçirilməsi, həmçinin, uşaqların icbari müayinəsi təşkil olunmuşdur. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetlər iştirak etmişdir. Müayinələrin nəticəsinə əsasən 1748 nəfərə ambulator, 492 nəfərə stasionar müalicə təyin olunmuş, 174 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

### *...Və digər tədbirlər*

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilmişdir. Sərəncama əsasən rayonun mədəni-maarif müəssisələrində şairin yubileyinə həsr olunmuş ədəbi-bədii gecələr, kompozisiyalar, dəyirmi masalar, sərgilər, rəsm müsabiqələri keçirilmişdir. Yubiley ilə əlaqədar görülən tədbirlər çərçivəsində magistral yolların kənarlarında və digər ərazilərdə 6 dekabr tarixində müxtəlif cinslərdən olan 3500 ağacın əkilməsi təmin edilmişdir.

***Ötən dövrdə keçirilən 35 rayon səviyyəli idman yarışları və birinciliklərdə 4292 idmançı iştirak etmişdir. Həmçinin, 29 respublika səviyyəli birincilik, çempionat və turnirlərdə 209 rayon idmançısının iştirakı təmin edilmişdir. İdmançılarımız həmin yarışlarda 7 dəfə I yeri, 7 dəfə II yeri, 3 dəfə isə III yeri tutmuş və ümumilikdə 17 medal qazanmışdır. Ötən dövr ərzində Olimpiya İdman Kompleksinin xidmətlərindən 245 nəfər ödənişli, 390 nəfər ödənişsiz əsasla olmaqla cəmi 635 nəfər istifadə etmişdir.***

Kompleks öz işini idmanın inkişaf etdirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması ilə bağlı fəaliyyət istiqamətləri üzrə təşkil etmişdir.

Rayonda cinayətkarlığa qarşı mübarizə, hüquq qaydalarının qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində tədbirlər görülmüş, kriminogen durum nəzarətdə saxlanılmışdır. Ötən müddətdə rayon polis şöbəsi tərəfindən 165 cinayət hadisəsi qeydə alınmış, onlardan 97,4 %-nin üstü açılmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlərin sayı 1 fakt azalmışdır.

Narkotiklərlə bağlı 72 cinayət faktı aşkar olunmuş, onlardan 20 fakt əkib- becərmə ilə bağlı olmuşdur. Müvafiq dövrdə baş vermiş 12 yol nəqliyyat hadisəsi zamanı 4 nəfər dünyasını dəyişmiş, 12 nəfər isə xəsarət almış, 2018-ci illə müqayisədə hadisələrin sayı 7 fakt azalmışdır.

RİH-də vətəndaş müraciətlərinə baxılması, onların qəbulunun təşkili işinin təkmilləşdirilməsi sahəsində aparatda RİH başçısı tərəfindən 621 nəfər vətəndaş qəbul edilmiş, əvvəlki illə müqayisədə qəbula gələn vətəndaşların sayı 130 nəfər artmışdır.

RİHB aparatına vətəndaşlardan 801 yazılı müraciət daxil olmuş, əvvəlki illə müqayisədə müraciətlər 166 ədəd və ya 26,0 % artmışdır. Daxil olan vətəndaş müraciətlərinin 98,2 %-nə bilavasitə rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri tərəfindən baxılmışdır.



**RİHB aparatında qeydə alınan 801 müraciətdən 7-ni təklif, 704-nü ərizə, 90-nı isə şikayət məktubları təşkil etmişdir. Ötən dövrdə RİHB aparatına 58 ədəd təkrar, 48 ədəd kollektiv müraciət, yuxarı orqanlardan 430 ədəd, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 355 ədəd müraciət daxil olmuşdur. Yuxarı orqanlardan daxil olan müraciətlər əvvəlki illə müqayisədə 123 ədəd və ya 40 %, Prezident Administrasiyasından daxil olan müraciətlər isə 107 ədəd və ya 43,1 % artmış, Prezident Administrasiyasından daxil olan müraciətlər ümumi müracətlərin 44,3 %-ni təşkil etmişdir.**

Əsassız təkrar müraciətlər əvvəlki illə müqayisədə ümumi müraciətlərin sayının artmasına səbəb olan başlıca amildir.

Daxil olan vətəndaş müraciətlərinin məzmununa görə təhlilindən aydın olur ki, müraciətlərin içərisində işlə təmin olunma tələbi, kənd təsərrüfatı və torpaq məsələləri, təbii fəlakətlərin yaratdığı fəsadların aradan qaldırılması, mənzillə təmin olunma, fərdi yaşayış evlərinin tikintisi və təmiri, enerji və su təchizatı məsələləri, məişət problemlərinin həllinə köməklik barədə müraciətlər çoxluq təşkil etmişdir.

Daxil olan ərizə və müraciətlərin 23,9 %-i ( 192 ədəd) müsbət həll olunmuş, 410 müraciətə dair müvafiq izahat verilmiş, 39 müraciət qismən həll olunmuş, 61 müraciət əsassız hesab edilmiş, 14 müraciət isə baxılmaq üçün aidiyyəti və tabeli qurumlara göndərilmişdir. Şifahi və yazılı müraciət edən 50-dən çox vətəndaşa maddi yardım göstərilmişdir.

Ötən ildə RİH-nə daxil olan bütün müraciətlər araşdırılaraq vaxtında baxılmış, icra müddətinin pozulması hallarına yol verilməmişdir.

**RİH-nin tabeli qurumlarına (şəhər, qəsəbə və kənd İƏD üzrə nümayəndəliklərə) 671 vətəndaş müraciəti daxil olmuş, nümayəndə və müavinlər tərəfindən 881 nəfər vətəndaş qəbul edilmişdir.**

Qəsəbə və kəndlərdə əhalini narahat edən sosial-iqtisadi problemlərin öyrənilib həll edilməsi, həmçinin şəxsi məsələlərə dair müraciətlərin yerlərdə baxılması məqsədilə qrafik üzrə mütəmadi olaraq əhalinin müxtəlif təbəqələri, eləcə də qəsəbə və kənd sakinləri ilə görüşlər keçirilmiş, həmin görüşlər zamanı qaldırılmış problemlərin əksər hissəsinin yerində həll edilməsi əhali tərəfindən razılıq hissi ilə qarşılanmışdır. Ötən dövrdə rayonun qəsəbə və kəndlərində rayon İcra Hakimiyyətinin başçısının əhali ilə keçirdiyi 47 səyyar qəbul-görüşdə 3744 nəfər iştirak etmişdir. 235 nəfər vətəndaş tərəfindən 257 təklif və tənqidi qeyd söylənilmişdir. Həmin görüşlərdən sonra əhali tərəfindən qaldırılmış müraciətlər nəzarətə alınaraq həlli mümkün olan məsələlər icra olunmuş, problemlər barədə yuxarı təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

**2019-cu il Balakən rayonunun tarixində bütün sahələrdə yüksək nailiyyətlərlə yadda qalmışdır. Hesabat dövründə görülmüş işlər, icra olunan layihələr rayonun sosial-iqtisadi inkişafına, abadlaşmasına, əhalinin maddi rifah halının yüksəlməsinə, gəlirlərinin artmasına və ümumilikdə Balakənin tərəqqisinə səbəb olmuşdur.**

**Məzahir ƏHMƏDZADƏ**